QANUN № 02 (352), 2024, s. 54-57



**Vəliyev İbrahim Əli oğlu,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
**Abasov Qürur Bəybala oğlu,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının magistrantı
E-mail: g.abasov@bfaa.az

**UOT 347.132.6**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.13**

# YALAN ƏQDLƏR

***Açar sözlər****: əqdlər, əhəmiyyətsiz, qaydalar, mahiyyət, etibarsızlıq.*

***Ключевые слова****: сделки, ничтожный, правила, сущность, недействительность.*

***Keywords****: transactions, insignificant, rules, essence, invalidity.*

İlk öncə qeyd edilməlidir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin tələbinə görə, yalan əqd başqa əqdi pərdələmək məqsədi ilə bağlanan əqddir. Yalan əqd əhəmiyyətsizdir. Yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir [1, s. 270].

Maddənin ilk iki cümləsinin tələbindən başa düşülür ki, hər hansı əqdi pərdələmək niyyəti ilə əsl iradəni əks etdirməyən əqdi bağlamaq həmin əqdin əhəmiyyətsizliyinə səbəb olur, yəni onu etibarsız edir.

Qeyd olunan maddənin üçüncü cümləsi isə yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydaların tətbiq edilməsini nəzərdə tutur. Qeyd olunan bu tələb hesab edirəm ki, real təcrübədə birmənalı başa düşülmür və fərqli yanaşmaların yaranmasına səbəb olur.

Belə ki, hal-hazırda formalaşan hüquqi təcrübədə, daha çox məhkəmə təcrübəsində yuxarıda qeyd olunan maddənin tələblərinə istinad edilməklə bu tip əqdlərin etibarsız olması qənaətinə gəlinir və bu yanaşma üzərindən müvafiq qərarlar qəbul edilir.

Əsasən məhkəmələr Azərbaycan Respublikasının Mülki Məcəllənin 405.1-ci maddəsinə istinad etməklə, yəni tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində tələb olunan formada razılığa gəldikdə, müqavilə bağlanmış sayılır əsası ilə əqdi etibarsız hesab etmələrini pərdələnən müqavilədə tərəflərin həqiqi iradəsi ifadə olunduğundan, bu əqd mülki qanunvericiliklə nəzərdə tutulmuş forma şərti də daxil olmaqla etibarlılıq tələblərinə cavab verdikdə, etibarlı əqd kimi arzu olunan hüquqi nəticələrə səbəb ola bilər yanaşması ilə əsaslandırırlar [2, s. 11].

Eyni zamanda, nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarında da yalan əqdlərin etibarsızlığı ilə bağlı mövqe eyni yanaşma əsasında formalaşmışdır. Misal olaraq, “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 18.03.2022-ci il tarixli Qərarını göstərmək olar [3, s. 3].

Eyni hüquqi mövqe, “X.Mirzəliyevin şikayəti üzrə AR Ali Məhkəməsinin Mülki Kollegiyası-

nın 18.11.2020-ci il tarixli qərarının AR Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 17.09.2021-ci il tarixli Qərarında da göstərilmişdir [5, s. 4].

Hesab edirəm ki, istər birinci, apelyyasiya və kassasiya instansiyaları məhkəmələrinin, istərsə də AR Konstitusiya Məhkəməsi Plenumunun təcrübəsində AR Mülki Məcəlləsinin 340.2-ci maddəsinin ilk iki cümləsi ilə bağlı mövqe göstərilsə də, üçüncü cümləsinin açıqlanması və ya izahı, şərhi, tətbiqi qaydaları ilə bağlı vahid mövqe göstərilməmişdir.

Həmin maddənin üçüncü cümləsinin tələbinə görə, yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir [1, s. 270].

Bu cümlənin tərkibində qaydalar sözünün olması hesab edirəm ki, bu maddənin mahiyyətinə təsir edir və onun fərqli tətbiqini tələb edir.

Belə ki, başqa əqdi pərdələmək niyyəti ilə bağlanan əqd etibarsız olduğu üçün pərdələnən əqd hansıdırsa, yəni tərəflərin əsl iradəsi hansı əqdə yönəldilibsə, həmin əqdə dair qaydalar tətbiq edilməlidir. Misal olaraq, ata mülkiyyətində olan əmlakı yalnız bir övladına qalmasını istəyir, digər övladların məcburi pay belə alınmasının qarşısı almaq üçün bağışlama müqaviləsini pərdələmək üçün alqı-satqı müqaviləsi bağlayır.

Bildiyimiz kimi, bağışlama müqaviləsi bağlandıqdan sonra iki il müddətində bağışlayan şəxs vəfat etdikdə onun vərəsələrinin məcburi pay almaq hüququ yaranır. Ata isə digər vərəsələrini ləyaqətsiz vərəsə elan etmək üçün kifayət qədər əsası olmadığı üçün bu cür yolla əmlakının yalnız bir övladına qalmasını təmin etmək istəyir. Belə olan halda digər övladlar məhkəmədə iddia qaldıraraq alqı-satqı müqaviləsinin yalan əqd olduğunu, əslində bağışlama müqaviləsinin pərdələmək niyyəti ilə bağlandığını qeyd edərək alqı-satqı müqaviləsinin etibarsız sayılmasını tələb edirlər.

Belə bir mübahisədə məhkəmələr kifayət qədər əsaslar olduqda əqdi etibarsız sayacaqlar və əmlakı əvvəlki hüquqi vəziyyətə gətirəcəklər.

Hesab edirəm ki, yuxarıda qeyd olunan maddənin 3-cü cümləsinin tələbi baxımından məhkəmələr tərəfindən bu tip qərarların qəbul edilməsi tam əsaslı deyil. Belə ki, qeyd olunan misal üzərindən müzakirə etsək müqavilənin etibarlı hesab edilməsi üçün iradə ifadəsi var (ata əmlakını övladına vermək istəyir), subyekt tərkibi pozulmayıb (subyektdə yalan yoxdur), əqdin məzmun tərkibi var və nəhayət, əqdin forma şərtlərinə riayət edilib, yəni yazılı və notarial qaydada təsdiqlənməsi həyata keçirilmişdir.

Yuxarıda qeyd olunan qərarlardan görünür ki, bu tip mübahisələrdə əsasən forma şərtlərinə riayət olunmamasına istinad edilərək müqavilə etibarsız hesab edilir. Halbuki mülkiyyətçinin bir iradəsi var, o da əmlakını özgəninkiləşdirməkdir və yalnız müqavilənin ad fərqliliyini əsas götürməklə həmin əqdi etibarsız saymaq hesab edirəm ki, tam obyektiv deyildir. Müqavilə yazılı və notarial qaydada təsdiqləndiyi üçün forma şərtlərinə riayət edilməsi kimi qəbul edilməlidir.

Eyni zamanda, hesab edirəm ki, müzakirə olunan misala Mülki Məcəllənin 340.2-ci maddəsinin üçüncü cümləsinin tələbi baxımından yanaşılsa, alqı-satqı müqaviləsi əsl iradəni əks etdirmədiyi üçün, yəni iradə ifadəsi qüsurlu olduğu üçün etibarsız hesab edilməlidir və tərəflər arasındakı münasibətlər bağışlama münasibətləri kimi qəbul edilməli və bağışlama müqaviləsini tənzimləyən normalar tətbiq edilməlidir. Əgər mülkiyyətçi 2 il ərzində vəfat edibsə, digər vərəsələrin məcburi payı tanınmalı, yox əgər 2 ildən çox müddət keçibsə, məcburi pay almaq hüququ itirilmiş hesab edilməlidir.

Qeyd olunan misalı əksinə düşünək, ata əmlakını bir övladına bağışlayır və 2 il ərzində vəfat edir. Bu halda digər vərəsələrin yalnız məcburi pay almaq hüququ yaranacaq. Və ya ata 2 ildən çox müddət keçdikdən sonra vəfat edir.

Bu zaman digər vərəsələrin heç bir pay almaq hüququ yaranmır.

Əgər yaranmış vəziyyət yalan əqd bağlanmadığı təqdirdə bu cür hüquqi nəticə verirsə, o zaman yalan əqd olduğu təqdirdə həmin nəticəni nəzərə alaraq müvafiq qərar qəbul etmək olar. Bu həm də prosessual qənaətlilik baxımından da əlverişlidir.

Oxşar mövqedən öz məqaləsində Qazaxıstan Respublikasının Mülki Məcəlləsinin 160-cı maddəsinin 2-ci hissəsinə istinad edərək Qazaxıstan Respublikasının Almatı şəhər Məhkəməsinin hakimi L.Suyundikova da çıxış etmişdir. Həmin məqalədə L.Suyundikova qeyd etmişdir ki, yalan əqdin əhəmiyyətsizliyi fərqli nəticələrə səbəb olur – QR Mülki Məcəlləsinin 160-cı maddəsinin 2-ci hissəsinin tələbinə görə, tərəflərin əslində nəzərdə tutduqları əqdə onun mahiyyəti nəzərə alınmaqla həmin əqdə aid qaydalar tətbiq edilir. Müvafiq olaraq yalan əqd əhəmiyyətsiz əqd sayılır, lakin bu halda restitusiya tətbiq edilmir, tərəflər arasında olan münasibətlərə həmin münasibətləri tənzimləyən qaydalar tətbiq edilir [6, s. 1].

Üstəlik nəzərə alınmalıdır ki, AR Mülki Məcəlləsi ilə müəyyənləşdirmiş qaydaları və qadağanları pozan əqdin etibarsızlığını nəzərdə tutan 338-ci maddə Məcəllədən çıxarılmışdır [4, s.1]. Yəni Mülki Məcəllənin 340.2-ci cümləsində "qaydalar tətbiq edilir" ifadəsi pərdələn əqdin də etibarsız hesab edilməsini nəzərdə tutmur. Həmin ifadə, mənim şəxsi mülahizəmə görə, pərdələyən əqdi etibarsız hesab etdikdən sonra pərdələnən əqd üzrə münasibətlərin qurulmasını və həmin münasibətləri tənzimləyən maddi hüquq normalarının tətbiq edilməsini nəzərdə tutur. Yuxarıda etdiyim kimi, daşınmaz əmlakla bağlı alqı-satqı müqaviləsi də, bağışlama müqaviləsi də, yazılı və notarial qaydada təsdiqlənməklə bağlanır və hüquqlar mütləq qaydada dövlət reyestrində qeydə alınır. Forma şərtinə riayət edilməməsi əsası ilə prədələnən əqdin etibarsız hesab edilməsi hüququn ümumi fəlsəfəsindən çıxış edərək əsaslı olub-olmaması ilə bağlı haqlı olaraq sual yaratmış olur.

Odur ki, bu məqalədə araşdırılan mövzunun həlli ilə bağlı təklif edərdim ki, AR Mülki Məcəlləsinin 340.2-ci maddəsinin üçüncü cümləsinin mahiyyətinin dəqiq izah edilməsi məqsədi ilə həmin maddə hüquq ictimaiyyətinin, xüsusən də  Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin tabeliyində Hüquq və İnsan Haqları İnstitutunun, AR Ali Məhkəməsinin, AR Konstitusiya Məhkəməsinin nümayəndələrinin geniş müzakirəsinə verilməlidir və ya müvafiq məhkəmələr tərəfindən AR Mülki Məcəlləsinin 340.2-ci maddəsinin 3-cü cümləsinin tətbiqi ilə bağlı fikir ayrılığının aradan qaldırılması məqsədi ilə AR Konstitusiya Məhkəməsinə AR Mülki Məcəlləsinin 340.2-ci maddəsinin 3-cü cümləsinin şərh edilməsi ilə bağlı müraciət ünvanlanmalıdır. Qeyd olunan işlər görüldükdən sonra zərurət yarandığı təqdirdə sözügedən maddəyə müvafiq dəyişikliklər edilməlidir.

**İstifadə edilmiş mənbələr:**

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // 28 dekabr 1999-cu ildə qəbul edilmişdir. – Bakı: Hüquq Yayın Evi, – 2023.

2. Azərbaycan Respublikası Ali Məhkəməsinin 2(102)-4326/2023 saylı, 12.12.2023-cü il tarixli qərarı: [Elektron resurs]/URL:https:// https://sc.supremecourt.gov.az/storage/Mulki/2023/2_4326+12.12.2023.pdf, 2023.

3. "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun 18.03.2022-ci il tarixli Qərarı: [Elektron resurs]/URL:https:// Bakı: https://e-qanun.az/framework/49455, 2022.

4. «Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 24 iyun 2005-ci il 949-IIQD nömrəli Qanunu (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693).

5. "X.Mirzəliyevin şikayəti üzrə AR Ali Məhkəməsinin Mülki Kollegiyasının 18.11.2020-ci il tarixli qərarının AR Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılması dair" 17.09.2021-ci il tarixli Qərarı. – Bakı: [Elektron resurs]/URL:https:// https://constcourt.gov.az/az/decision/1243, 2021.

6. Qazaxstan Respublikasının Almaata şəhər Məhkəməsinin hakimi L.Suyundikovanın məqaləsi. – Almaatı: [Elektron resurs]/URL:https:// https://online.zakon.kz/Document/?doc_id=34412059&pos=6;-60#pos=6;-60.

**Велийев Ибрагим Али оглы**
**Абасов Гурур Бейбала оглы**

**ПРИТВОРНЫЕ СДЕЛКИ**

**РЕЗЮМЕ**

В данной статье на основе требований гражданского законодательства Азербайджанской Республики изучен единый опыт, сложившийся при применении статьи 340.2 Гражданского кодекса Азербайджанской Республики, регулирующей недействительность притворных сделок. В результате проведенного исследования определены последствия признания притворных сделок недействительными и противоречия на практике, а также выдвинуты предложения по устранению данных противоречий.

**Valiyev İbrahim Ali**
**Abasov Gurur Baybala**

**FAKE TRANSACTIONS**

**SUMMARY**

The article, based on the requirements of the civil legislation of the Azerbaijan Republic, studies the uniform experience that has developed in the application of Article 340.2 of the Civil Code of the Azerbaijan Republic, regulating the invalidity of fake transactions. As a result of the study, the consequences of recognizing fake transactions as invalid and contradictions in practice were determined, and proposals were put forward to eliminate these contradictions.

**Redaksiyaya daxilolma tarixi: 07.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 10.02.2024**
**Çapa qəbul olunma tarixi: 14.02.2024**